Bununla yanaşı kitabxanada fəaliyyət göstərən Regional Kitabxana Məlumat Mərkəzində kompyuter təlimlərinə gələrək proqramları öyrənir, internet vasitəsi ilə müxtəlif informasiyalar əldə edirlər.

Əlbəttə, bugünkü sağlam əqidəli, bilikli uşaq, yeniyetmə sabah Azərbaycanın inkişaf sütunudur. Uşaqların cəmiyyət üçün gördükləri hər bir xeyirxah iş onlarda gələcəyə inamlı addım kimi qiymətləndirilsə bu onlarda daha da ruh yüksəkliyi yaradar. Kitabxana bu baxımdan uşaqların ən sevimli istirahət ocağıdır. Belə ki, uşaqlar kitabxananın ictimai tədbirlərində yaxından iştirak edirlər.



# Kitabxana və cəmiyyət

*Cəmiyyətimizin inkişafında gələcəyimiz olan uşaqların rolu böyük əhəmiyyət kəsb edir. Bu baxımdan uşaqların ictimai fəaliyyətini genişləndirmək ailə və məktəblə yanaşı, biz kitabxanaçıların da üzərinə düşür. Belə ki, uşaqlar boş vaxtlarını səmərəli keçirmək üçün kitabxanaya üz tuturlar. Burada onlar istədikləri ədəbiyyatları seçərək oxuyurlar.*

Təbii ki, cəmiyyətdə sağlam uşaqlarla yanaşı, əqli və fiziki cəhətdən qüsurlu uşaqların da normal yaşaması üçün mənəvi dəstəyə və köməyə ehtiyacları vardır. Bu sahədə mərkəzi kitabxanamızın işçiləri tez-tez əlillərin reabilitasiya mərkəzində olur, buradakı əlil uşaqlara nağıl kitabları və digər maraqlı uşaq ədəbiyyatı ilə kitabxana xidməti göstərirlər.

Belə görüşlərdən biri də bu günlərə təsadüf etdi. Kitabxanada fəaliyyət göstərən Regional Kitabxana Məlumat Mərkəzinin həyata keçirdiyi «İnformasiya dövrünün qızları» layihəsinin «Əlillərə dəstək» proqramının təşkil olunmasında kitabxana işçiləri yaxından iştirak edərək layihənin qalibləri Pakizə, Şəhanə və onların layihə ətrafında topladıqları 15 nəfərdən ibarət məktəbli könüllülər qrupu ilə birlikdə Qəbələnin ən gözəl istirahət guşələrindən biri olan «Ay işığı» istirahət mərkəzinə yollandılar. Görüşdə əqli və fiziki cəhətdən qüsurlu əlillərin bir çoxunun valideynləri də iştirak edirdilər. Əlil uşaqların cəmiyyətə inteqrasiyası, sağlam uşaqlarla birgə oynaması, danışıb-gülməsi necə də xoş təsir bağışlayırdı. Kitabxana işçilərindən xidmət şöbəsinin işçisi Gülnarə Rüstəmova, uşaq şöbəsinin işçisi Aqibət Babayeva əlillər üçün nağıllar oxuyaraq onların istirahətinin daha da rəngarəng keçməsinə çalışırdılar. Daha sonra tədbir iştirakçıları birlikdə intellektual oyunlar oynadılar.

Əlillərin hər birinin üzündə böyük sevinc duyulurdu. Onlar özlərini nəinki sağlam, həm də həmişə bu uşaqlarla olmuş kimi hiss edirdilər. Sonra əlillər üçün gözəl nahar süfrəsi açıldı. Uşaqların mədəni istirahətinin təşkilində Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova da yaxından köməklik göstərdi. «Ay işığı» istirahət mərkəzinin işçiləri də öz köməyini əsirgəmirdi. Onlar əlil uşaqların istəyinə görə nə lazımdırsa edirdilər. Əlillərlə işi davamlı şəkildə apararaq, onlara mənəvi dəstək olmaq hər bir azərbaycanlının diqqətindən yayınmamalıdır. Bir sözlə bu görüş hər birimizə xoş təsir bağışladı.

Biz kitabxanaçılar da qarşımıza məqsəd qoyaraq hər zaman əlillərə mənəvi dəstək olmağa çalışacaq və onlarla belə görüşləri davam etdirəcəyik.

**Aqibət BABAYEVA,**
**MKS-nin uşaq şöbəsinin baş kitabxanaçısı,**
**RKMM-in treyneri**